*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

**Derleme Makalesi | Review Article**
**Geliş tarihi |Received:05.08.2025**
**Kabul tarihi |Accepted:10.10.2025**
**Yayın tarihi |Published:25.10.2025**

**Aynur Kərimli**

***https://orcid.org/0009-0002-0353-8829***
*PhD Student, Department of History, Baku State University, Azerbaijan, aynurkarimli0@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Kərimli, A. (2025). 1960-cı illərdə Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti tarixinin təhlili. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (5), 718-726.

# 1960-cı illərdə Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti tarixinin təhlili

***Xülasə***

*Bu məqalədə Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif aspektlərinin 1960-cı illərdə Türkiyə tarixşünaslığında tədqiqindən bəhs olunur. Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik olan bu mövzu yarandığı dövrdən bu günədək Azərbaycan tarixçiləri ilə yanaşı, xarici ölkə tədqiqatçılarının, xüsusən də Türkiyə tarixçilərinin diqqət mərkəzində olmuşdur. Əvvəlki illərlə müqayisədə XX əsrin 60-cı illərində Azərbaycan Xalq Cümhuriyyəti tarixinin Türkiyə tarixçiləri tərəfindən araşdırılması əhəmiyyətli dərəcədə genişlənmişdi. Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti Qafqazda qurulan ilk türk dövləti kimi mühüm yer tutur. Bu respublika Türkiyə ilə Azərbaycan arasında əlaqələrin əsasını təşkil etmiş, iki ölkə arasında mədəni, siyasi və iqtisadi əməkdaşlığın inkişafına mühüm töhfə vermişdir. Məqalədə Türkiyə tarixçiləri Tevfik Bıyıklıoğlu, Hüsamettin Tuğaç və Sabahattin Selek tərəfindən yazılmış əsərlərin tədqiqi əsas yer tutur.*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Qafqaz İslam Ordusu, Bakı, Osmanlı ordusu, Mudros müqaviləsi*

# The Analysis of the History of the Azerbaijan Democratic Republic in Turkish Historiography of the 1960s

**Abstract**

*This article examines various aspects of the study of the history of the Azerbaijan Democratic Republic (ADR) in Turkish historiography during the 1960s. The history of the ADR, a subject of special significance in Azerbaijani history, has attracted the attention of both Azerbaijani historians and foreign scholars, particularly Turkish researchers, since its establishment. Compared with previous decades, research on the history of the Azerbaijan Democratic Republic by Turkish historians expanded considerably during the 1960s. In Turkish historiography, the ADR occupies an important place as the first Turkic state established in the Caucasus. The republic served as a foundation for relations between Turkey and Azerbaijan and made a significant contribution to the development of cultural, political, and economic cooperation between the two countries. The article primarily focuses on the studies written by Turkish historians Tevfik Bıyıklıoğlu, Hüsamettin Tuğaç, and Sabahattin Selek.*

***Keywords:*** *Azerbaijan Democratic Republic, Caucasian Islamic Army, Baku, Ottoman Army, Mudros Armistice*

**Copyright and License Statement**

***All publication and copyright of this article are held by the Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi. The article is made available by the journal as open access under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Under this license, the article may be used, reproduced, and shared in any medium for non-commercial purposes, provided that proper scholarly attribution is given; however, the original content may not be altered, transformed, or used to create derivative works. The scientific, legal, and ethical responsibility for the content of the works published in the journal rests entirely with the author(s) of the article; the journal's editors and editorial board cannot be held responsible for this content. All requests concerning commercial reuse, translation, or republication of the article must be directed to the journal's editorial board at akademiktarihvedusunce@gmail.com.***

## Giriş

1918–1920-ci illər Azərbaycan xalqının tarixi inkişafında mühüm mərhələ təşkil edir. Bu dövrdə xalqımız milli dövlət suverenliyini əldə etmiş, beynəlxalq aləmdə layiqli yer tutmağa səy göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) 28 may 1918-ci ildə mürəkkəb tarixi-siyasi şəraitdə müstəqilliyini elan edərək, Azərbaycan Respublikasının bu gün davam etdirdiyi demokratik dövlətçilik ənənələrinin təməlini qoymuşdur.

Azərbaycan tarixində xüsusi yeri olan Cümhuriyyət dövrü yalnız qısa bir zaman kəsiyində mövcud olsa da, milli azadlıq ideyalarının formalaşması, hüquqi dövlət quruculuğu və müasir idarəetmə sisteminin əsaslarının yaradılması baxımından böyük əhəmiyyət kəsb etmişdir. Bu səbəbdən, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif problemlərinin elmi cəhətdən tədqiqi və sistemli şəkildə öyrənilməsi bu gün də aktual məsələlərdəndir.

Mövzunun həm milli, həm də beynəlxalq tarixşünaslıqda öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan–Türkiyə münasibətlərinin yüksələn xətlə inkişaf etdiyi nəzərə alınarsa, bu dövrün Türkiyə tarixşünaslığında təhlili və qiymətləndirilməsi zəruri elmi istiqamət kimi çıxış edir. Xüsusilə XX əsrin 60-cı illərindən etibarən Türkiyəli tədqiqatçı və tarixçilərin əsərlərində Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı məlumatların elmi şəkildə təhlili bu tədqiqatın əsas məqsədlərindən birini təşkil edir.

### 1960-cı illər Türkiyə tarixşünaslığı

Qeyd etmək lazımdır ki, XX əsrin 60–70-ci illərində Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti (AXC) tarixinin araşdırılması əvvəlki illərlə müqayisədə daha zəngindir. Qeyd olunan illərdə dövrün ayrı-ayrı məsələləri ilə bağlı Türkiyə tarixçiləri dəqiq konsepsiyalar yaratdılar. Bu konsepsiyalar Cümhuriyyətin yaranması, Türkiyənin Azərbaycana göstərdiyi hərbi-siyasi dəstək və AXC-nin süqutu məsələləridir. Türkiyə tarixşünaslığında əsasən AXC-nin yaranmasında "türk amili"ni qəbul edənlər, Türkiyə qoşunlarının Bakıya hərbi müdaxiləsini hərbi-siyasi dəstəyin bir növü kimi qiymətləndirirlər (Ağayev, 1993). Müəllifin yazdıqlarından da aydın olur ki, iki dövlətin həm coğrafi, həm etnik yaxınlığını nəzərə alsaq, Osmanlı ordusunun bu gəlişinin məqsədi həqiqətən də hərbi-siyasi çərçivədə dəstək idi.

1960-cı illərdə Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti haqqında məlumat verilən əsərlərdən biri 1962-ci ildə keçmiş Baş Qərargah polkovniki Tevfik Bıyıklıoğlu tərəfindən qələmə alınan "Türk İstiklal Harbi: Mondros mütarekesi və tatbikatı" adlı əsərdir. Əsər giriş, beş fəsil, əlavələr və eskizlərdən ibarətdir. 1962-ci ildə yazılmış bu əsər mövcud rəsmi sənədlərə əsaslanaraq Baş Nazirlik, Xarici İşlər Nazirliyi, Yunanıstan Xarici İşlər Nazirliyi və ictimaiyyətin tarixi məlumatlarından istifadə edilərək bir daha nəşr edilmişdir.

Əsər tarixçi, Baş Qərargah polkovniki Tevfik Ercan tərəfindən yenidən işlənmiş, redaktə edilmiş və Hərbi Tarix və Strateji Araşdırmalar Başkanlığının səlahiyyətli qurumları tərəfindən araşdırılaraq ikinci dəfə 1995-ci ildə çap olunmuşdur (Bıyıklıoğlu, 1999). Əsərin yazılmasında arxiv sənədlərindən istifadə edilməsi onu daha da dəyərli edir.

Əsərin birinci fəslində müəllifin verdiyi məlumata əsasən, Azərbaycan, Gürcüstan və Ermənistanın Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratması və qısa müddət sonra müstəqil dövlətlər qurmasından bəhs olunur. Cənubi Qafqaz İttifaqının əvəzinə 1918-ci il mayın 28-də hər biri müstəqil olan “Milli Azərbaycan, Ermənistan, Gürcüstan” hökumətləri yaradıldı. Bu hökumətlərin nümayəndə heyətləri ilə yenidən Batumda aparılan danışıqlar nəticəsində 1918-ci il 4 və 11 iyun tarixlərində ayrı-ayrı sülh və dostluq müqavilələri, eləcə də bəzi müvəqqəti sazişlər imzalandı (Bıyıklıoğlu, 1999). Onu da qeyd edim ki, Gürcüstan dövlət müstəqilliyini 26 may, Azərbaycan və Ermənistan isə 28 may tarixlərində elan etmişdilər.

Təbii ki, 1918-ci il 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi və fəlsəfi fikrin məntiqi nəticəsi idi (Azərbaycan tarixi, 2008). Yaranmış şəraitdən məharətlə istifadə edən siyasi xadimlər Azərbaycan Xalq Cümhuriyyətini qurdular. Batumda, eləcə də müvəqqəti müqavilələrin imzalanması uğurlu xarici siyasətin aparıldığını göstərən faktlardır. Bu müqavilələrin imzalanması həm də iki dövlət arasındakı əlaqələrdə hüquqi çərçivə yaratdı.

Müəllif Azərbaycana Osmanlının yardımını belə qeyd edir: “Üç müstəqil Qafqaz hökumətində müsəlman-türk Azərbaycan Cümhuriyyəti çox çətin vəziyyətdə idi. Azərbaycanın milli dövlət kimi möhkəmlənməsi üçün Osmanlı ordusunun sürətli şəkildə gəlməsi və köməyi lazım idi. Azərbaycan qüvvələrinin neftlə zəngin olan Bakını təkbaşına ələ keçirməsi qeyri-mümkün görünürdü” (Bıyıklıoğlu, 1999). Müəllifin yazdığına görə, Batum müqaviləsindən sonra Azərbaycan Milli Ordusunun yaradılmasına kömək etmək üçün Nuri paşa və zabitlərdən ibarət nümayəndə heyəti Gəncəyə göndərildi. Azərbaycanın milli sərhədlərini az bir qüvvə ilə ələ keçirməyin mümkün olmadığı bəlli olduqdan sonra 9-cu Osmanlı ordusunun 15-ci diviziyası, 5-ci Qafqaz diviziyası, 36-cı diviziyadan isə 108 və 107-ci alaylar sürətlə Azərbaycana göndərildi. Bu qüvvələr 1918-ci il sentyabrın 15-də Bakını mühasirəyə alaraq mərkəzi Azərbaycanı ermənilərdən və ingilislərdən azad etdilər. Bakını müdafiə edən qüvvələr arasında İngiltərənin 27-ci diviziyası da var idi (Bıyıklıoğlu, 1999). Əslində demək mümkündür ki, Bakının neftlə zəngin bir şəhər olması müxtəlif cəbhələrdə olan düşmənləri belə birləşdirirdi. Bu səbəbdən müəllif Bakının azad olunması məsələsinə bu fəsildə xüsusi diqqət yetirmişdir.

Əsərin ikinci fəslinin “Doğu Cephesinde Mütareke tatbikatı” başlıqlı hissəsində müqavilənin şərtlərinə əsasən, Şimal-Qərbi İran, Dağıstanla yanaşı Azərbaycanın da

boşaldılmasından bəhs olunur. Qars, Ərdahan və Batumun (Elviye-i Səlase – üç sancaq) öz sərhədləri daxilində qalacağını qəbul edən Osmanlılar, barışıq danışıqları başlamadan əvvəl, yəni 1918-ci il oktyabrın 21-də 9-cu ordu komandanlığına verdiyi əmrlə 24 oktyabrdan etibarən altı həftə ərzində türk ordusunun Brest-Litovsk müqaviləsi ilə əldə etdiyi ərazilər istisna olmaqla, işğal etdiyi yerləri boşaltmasını əmr etmişdilər (Bıyıklıoğlu, 1999). Müəllif burada Brest-Litovsk barışığı ilə Osmanlı dövlətinin yenidən Qars, Ərdahan və Batuma sahib olduğunu vurğulayır.

Əsərdə sülh müqaviləsi imzalanarkən Osmanlı ordusunun Şərq cəbhəsindəki vəziyyəti haqqında geniş məlumat və eskiz təqdim olunur. Məlumata əsasən, Qafqaz İslam Ordusu – komandir Nuri paşa, qərargahı Bakıda idi. 5-ci Qafqaz Diviziyası – qərargahı Bakıda yerləşirdi; diviziyanın bəzi bölmələri Qarabağda quldur dəstələrinin yatırılması ilə məşğul idi (bu diviziya İstanbula köçürülməli idi). 15-ci Diviziya (45-ci alay və bir artilleriya batalyonu) Petrovska hücumda idi (bu diviziya da İstanbula köçürülməli idi). 36-cı Diviziyanın 107-ci alayı 15-ci Diviziya ilə birlikdə hücumda, 36-cı Diviziyanın 106-cı alayı, həmin diviziyanın artilleriya batalyonu və 1-ci Azərbaycan Korpusunun qərargahı Bakıda idi. 1-ci Azərbaycan Diviziyasının qərargahı Şuşada yerləşirdi; bölmənin əsas hissəsi Şuşa, Ağdam və Gəncə rayonlarında idi. 2-ci Azərbaycan Diviziyası Bakıda, 9-cu Ordu Komandiri Yakup Şevki Paşanın qərargahı Qarsda, 11-ci Qafqaz Diviziyasının qərargahı Xoy şəhərində idi. Müxtəlif hissələrdən ibarət dəstə Təbrizdə yerləşirdi və bölmənin əsas hissəsi Dilman–Xoy–Culfa xəttində mövqelənmişdi (Bıyıklıoğlu, 1999).

Müəllifin qənaətinə görə, Osmanlı imperiyasının müttəfiqləri ilə birlikdə məğlub olması və Antanta dövlətlərinə atəşkəs üçün müraciət etməsi, Qafqazda böyük fədakarlıqlarla əldə edilmiş üstün mövqelərin itirilməsi kimi bir fəlakətin mümkünlüyündən xəbər verirdi (Bıyıklıoğlu, 1999). Bunun baş verməsi, təbii ki, ən çox türk-müsəlman əhalisinin yaşadığı Azərbaycan və Dağıstan üçün çətin vəziyyət yaradırdı.

Beləliklə, Birinci dünya müharibəsində (1914–1918) məğlub olan Osmanlı dövləti Mudros barışığına (1918) əsasən, öz hərbi qüvvələrini Cənubi Qafqazdan, o cümlədən Bakıdan çıxarmalı oldu (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2014). Nəticədə, barışığın imzalanması ilə türk ordusunun Azərbaycandan və Qafqazdan çıxması, çətin tarixi-siyasi şəraitdə qazanılmış müstəqilliyin itirilməsi təhlükəsini yaratdı.

XX əsrin 60-cı illərində Türkiyə tarixşünaslığında tədqiqat mövzusuna dair məlumat verən əsərlərdən digəri Hüsamettin Tuğaç tərəfindən yazılmış “Türk İstiklal Harbi: Doğu Cephesi” adlı kitabdır. 1965-ci ildə nəşr olunan bu əsərin III cildi 1995-ci ildə Türkiyə

Cümhuriyyəti Müdafiə Nazirliyi tərəfindən yenidən çap edilmişdir. Giriş, on iki fəsil və nəticədən ibarət olan bu əsərdə Birinci dünya müharibəsinin sonunda yaranmış əlverişsiz şəraitdə ermənilərin Şərqdə türk və müsəlman əhaliyə qarşı törətdiyi zorakılıq hərəkətləri, "Böyük Ermənistan" məsələsi və onun Şərqi Anadoluda yaratdığı əks-səda, həmçinin Ermənistana qarşı aparılan hərbi əməliyyatlar nəticəsində imzalanmış Gümrü, Moskva və Qars sazişləri təhlil olunur (Tuğaç, 1995).

Əsərin birinci fəslində "erməni məsələsi", Azərbaycan və digər Cənubi Qafqaz ölkələrindəki siyasi vəziyyətdən bəhs olunur. Bu fəsildə Mudros sülh müqaviləsinin imzalanmasından sonra türk ordusunun Bakını tərk etməsindən dərhal sonra, 1918-ci il 17 noyabrda ingilis ordusunun Bakıya daxil olması və Azərbaycanın qonşu dövlətlərlə münasibətləri haqqında məlumat verilir. Müəllif qeyd edir: "Türk qüvvələri və İslam ordusunun qərargahı Bakını boşaldan kimi, İranın Xəzər dənizi sahilində yerləşən Ənzəlidə gözləyən və əvvəllər Bakıdan qovulmuş ingilis qoşunlarının komandanı general Tomson rus və erməni əsgərlərinin müşayiəti ilə Bakıya daxil oldu" (Tuğaç, 1995).

Mudros barışığına əsasən, türk ordusunun Azərbaycanı, o cümlədən Naxçıvanı tərk etməsi vəziyyəti yenidən mürəkkəbləşdirdi. Bölgə əhalisini kütləvi hücumlardan qorumaq məqsədilə Naxçıvan, Şərur, Dərələyəz və Ordubad qəzalarını, həmçinin Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və digər əraziləri əhatə edən Araz-Türk Respublikası (1918–1919) yaradıldı (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2014). Birinci dünya müharibəsində Osmanlının məğlub olması və barışığı imzalamaq məcburiyyətində qalması, böyük çətinliklərlə azad edilmiş Bakının yenidən itirilməsi ilə nəticələndi.

Cənubi Qafqazda ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi hərəkətlər əsərin dördüncü fəslində öz əksini tapır. Müəllif yazır ki, Mudros müqaviləsindən sonra Ermənistan müstəqilliyini elan edərək İrəvan, Qars və Naxçıvan ərazilərində türk-müsəlman əhaliyə qarşı kütləvi zorakılıq hərəkətləri həyata keçirdi (Tuğaç, 1995). "1918-ci ilin qışında, türk ordusu Üç Sancağı boşaltmazdan əvvəl, Göyçə gölü ilə Naxçıvan arasında Andranikin və Yapun adlı ermənının başçılıq etdiyi Zəngəzur və Dərələyəz hadisələri başladı. Eyni zamanda, Ermənistan silahlı qüvvələri Şərur rayonuna hücum etdi. Dərələyəzin müsəlman kəndləri yandırılaraq dağıdıldı, 1000-dən çox insan şəhid oldu, 113 kənd yerlə-yeksan edildi" (Tuğaç, 1995).

Göründüyü kimi, Mudros müqaviləsinin imzalanması və türklərin Azərbaycanı tərk etməsindən sonra ermənilər yenidən kütləvi zorakılıq fəaliyyətlərinə davam etdilər. 9-cu Türk Ordusunun komandanı Yakup Şevki Paşa bu hadisələri izah edən hesabatını 27 noyabr 1918-ci ildə Milli Müdafiə Nazirliyinə təqdim etmişdir. Həmin hesabatda ermənilərin müsəlmanlara qarşı zorakılıq siyasəti yürütmələri qeyd olunur. Eləcə də 9-cu Türk Ordusu komandanının 29

noyabr və 27 dekabr 1918-ci il tarixli hesabatlarında da bu fəaliyyətlər haqqında məlumat verilir (Tuğaç, 1995). Bu hesabatlar göstərir ki, bölgədəki müsəlman əhali çətin vəziyyətdə idi və yardım gözləyirdi.

Əsərdə Cənubi Qafqazda ermənilərin fəaliyyəti və onlara qarşı milli şuralar tərəfindən aparılan mübarizə regionlar üzrə izah edilir. Naxçıvan, Iğdır, Zəngibasar, Qars (Kağızman), Tuzluca və Arpaçay ərazilərində ermənilərin hücumları, həyata keçirdikləri hərbi əməliyyatlar ətraflı şəkildə təsvir olunur. Müəllif inqilabların səbəbini izah edərkən qeyd edir ki, Birinci dünya müharibəsi illərində türk ordusu Bakıya daxil olmamışdan əvvəl Bakı müsəlmanları bolşevik pərdəsi altında talanlar törədən erməni dəstələrinin davranışlarını unuda bilmirdilər. 1920-ci il aprelin 28-də Bakıya daxil olan Qızıl Ordu daşnakların təsiri altına düşərək Azərbaycan rəhbərlərini və yüksək rütbəli zabitləri həbs etdi, ordunu dağıtdı, ölkənin sərvətlərini Rusiyaya keçirdi və bu, xalqın dini və milli hisslərini alovlandırdı (Tuğaç, 1995). H. Tuğaç bununla bildirmək istəyirdi ki, xalqın artıq dözümü tükənmişdi.

H. Tuğaç Gəncədə olan üsyanı belə təsvir edir: “Hadisələr belə cərəyan etdi: üsyançılar Bakı ilə Gəncə arasında dəmir yolu körpülərini dağıtdılar. Bu arada Azərbaycan xalqı və hərbçiləri tərəfindən Gəncə və Qarabağda Qızıl Ordu hissələrinə qarşı üsyan başladı. 1920-ci ilin mayında qırmızılarla Azərbaycan əsgərləri arasında başlayan toqquşmalar bir həftə davam etdi. Bu toqquşmalarda 20-ci Qırmızı diviziyanın bölmələri xeyli itki versələr də, Gəncə ermənilərinin köməyi ilə şəhəri ələ keçirdilər. Bu üsyanın yatırılması zamanı 10–12 min adam həyatını itirdi” (Tuğaç, 1995).

Müəllif əsərin altıncı fəslində 11-ci Qızıl Ordunun Bakıya daxil olması və hakimiyyəti ələ keçirməsindən bəhs edir. Belə ki, 28 aprel 1920-ci ildə 11-ci Qızıl Ordu Bakıya daxil oldu, sonra isə Gəncə və Qarabağa hərbi qüvvələrini göndərdi. “Ankara Böyük Millət Məclisi Hökumətinin Sovet Rusiyası ilə siyasi əlaqələr qurmaq və kömək istəmək üçün göndərdiyi məktub Sovet hökumətinin əlinə keçmədən Bakıya daxil olan 11-ci Qızıl Ordu Moskvanın Azərbaycana müstəqillik vəd etməsinə baxmayaraq, Bakıya nəzarəti ələ keçirdikdən sonra tamamilə təkbaşına hərəkət etdi, Bakıdakı türk zabitlərini oradan uzaqlaşdırdı, Azərbaycan ordusunu Qızıl Ordunun bir hissəsi hesab edərək qalan qüvvələri öz qoşunları tərkibində Gürcüstan və Ermənistan sərhədlərinə göndərdi. Eyni zamanda bolşevik planı həyata keçirildi, kütləvi həbslər, sürgünlər və talanlar başladı” (Tuğaç, 1995). 28 aprel 1920-ci ildə “xilaskar” adı ilə Bakıya gələn 11-ci Qızıl Ordunun daşnakların təsiri ilə Azərbaycanın yüksək rütbəli hərbçilərini həbs etməsi, ordunu ləğv etməsi və ölkə sərvətlərinin Rusiyaya daşınması kimi addımları cəmiyyətdə kəskin narazılıq doğurdu. Bu fəsildə Gəncədə 1920-ci il mayın 20-də

başlayan, bir həftə davam edən Gəncə qarşıdurması və Ağdam döyüşləri geniş təsvir olunur. Doqquzuncu və onuncu fəsillərdə Sarıqamış və Qars əməliyyatları haqqında müfəssəl məlumat verilir, sonrakı fəsillərdə isə Gümrü və Moskva sülh sazişlərindən bəhs edilir (Tuğaç, 1995).

XX əsrin 60-cı illərində yazılan və Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı məlumatlar ehtiva edən əsərlərdən biri də Sebahattin Selek tərəfindən 1963-cü ildə qələmə alınmış “Anadolu İhtilali”dir. Bu əsər 1987-ci ildə səkkizinci dəfə nəşr olunmuşdur. Mudros sülh barışığından Lozanna müqaviləsinə, Osmanlı imperiyasının süqutundan Türkiyə Cümhuriyyətinin yaranmasına qədərki dövrün hadisələrini rəsmi nəşrlər və sənədlər əsasında sənədli üslubda təqdim edən S. Selek əsər üzərində doqquz il çalışmışdır. Müəllifin qeyd etdiyinə görə, Ənvər paşa Qafqazdakı türk qüvvələrinin Azərbaycan və Dağıstan ordusu olaraq yerlərində qalmasını planlaşdırmışdı; bu fikrə uyğun olaraq bir sıra birliklərə “Azərbaycan korpusu”, “Azərbaycan bölməsi” kimi adlar verilmişdi. Lakin Əhməd İzzət paşa kabineti iş başına gəldikdən sonra bu təsəvvür dəyişdi və bütün birliklərin Brest-Litovsk müqaviləsinə əsaslanan sərhədlərə çəkilməsi qərara alındı. Bu məqsədlə Baş Qərargah Mudros barışığı imzalanmadan öncə, 21 oktyabr 1918-ci ildə verilən əmrlə Şərq Ordular Qrupunun və 1-ci Qafqaz Ordusu qərargahlarının ləğvini, qərargah heyətlərinin İstanbula qayıtmasını, 8 və 9-cu orduların bilavasitə Baş Qərargaha tabe edilməsini, dörd birliyin İstanbula köçürülməsini, 9-cu Ordunun İran və Azərbaycandakı bütün qüvvələrinin sərhəddə geri çəkilməsini müəyyənləşdirdi. Hərbi Nazirlik 27 oktyabr 1918-ci ildə Qafqaz İslam Ordusu ilə Şimali Qafqaz komandanlığının ləğvini qərara aldı və Şimali Qafqazda, Azərbaycanda xidmət etmək istəyənlərin orada qala biləcəyini bildirdi. Lakin Hərbi Nazirliyin 24 noyabr tarixli əmri ilə bu qərar ləğv edildi; Şimali Qafqaz və Azərbaycanda olan bütün zabit və əsgərlərin ən gec iki ay ərzində 9-cu Orduya ilhaq olunmaları tapşırıldı və itaətsizlik halında hüquqi tədbirlərin görüləcəyi qeyd olundu. Halbuki ilk əmrdən irəli gələrək Qafqaz İslam Ordusunun komandanı Nuri paşa Azərbaycan hökuməti ilə razılığa gəlmiş və 4 noyabr 1918-ci il əmri ilə birliklərə məlumat vermişdi; bir çox zabit və əsgər Şimali Qafqaz və Azərbaycanda qalmaq üçün müraciət etmişdi (Selek, 1987). Müəllifin təqdim etdiyi maddələrdən aydın olur ki, Azərbaycanda xidmət edəcək əsgər və zabitlər həmin hökumətin təbəəsi sayılır, cəza və mükafat məsələlərində Azərbaycan qanunlarına tabe olur, rütbələrini saxlayır, hər zabitə iki aylıq məzuniyyət (gediş-gəliş daxil olmaqla) verilir və müqavilə bir ildən əvvəl ləğv edilə bilmirdi (Selek, 1987). Bütün bunlar göstərir ki, iki dövlət arasında dostluq münasibətləri həmin dövrdə də qorunurdu. Qeyd olunanlar əsasında demək olar ki, Mudros barışığının şərtlərinə baxmayaraq, Osmanlı dövləti Azərbaycanın təhlükəsizliyi və sabitliyi üçün dəstəyini tam dayandırmaq niyyətində deyildi.

**Nəticə**

Qeyd olunan əsərlərdə müəyyən fərqliliklərin olmasına baxmayaraq, ümumilikdə araşdırılan əsərlərdə daha çox türk ordusunun Azərbaycana olan hərbi və siyasi yardımı öz əksini tapmışdır. Tevfik Bıyıklıoğlu və Sabahattin Selekdən fərqli olaraq Hüsamettin Tuğaç tərəfindən yazılmış "Türk İstiklal Harbi: Doğu Cephesi" adlı əsərdə sadəcə türk ordusunun Azərbaycana yardımı, Mudros müqaviləsi haqqında məlumat deyil, eyni zamanda Birinci dünya müharibəsinin sonunda yaranmış olan əlverişsiz şəraitdə ermənilərin Şərqi Anadoluda və Azərbaycanda türk-müsəlman əhaliyə qarşı törətdiyi zorakılıqların qarşısının alınması, "Böyük Ermənistan" məsələsi və onun Şərqi Anadoluda yaratdığı əks-səda, Ermənistana qarşı həyata keçirilən hərbi əməliyyatlar nəticəsində imzalanmış Gümrü, Moskva və Qars sazişləri tədqiq olunmuşdu.

Hüsamettin Tuğaç isə qeyd olunan mövzularla yanaşı, Naxçıvanda baş verən hadisələr və hərbi əməliyyatlar haqqında ətraflı şəkildə bəhs etmişdi. "Anadolu İhtilali" əsərində isə fərqli cəhət ondan ibarətdir ki, müəllif burada Mudros barışığına əsasən Azərbaycanı tərk etmək məcburiyyətində qalan Osmanlı ordusunda xidmət göstərən hərbçilərdən istənilən birinin könüllü surətdə müəyyən şərtlər daxilində Azərbaycanda qalmaları geniş təsvir olunur. Lakin məlumdur ki, daha sonra qalib dövlətlər tərəfindən türk əsgərləri tamamilə Azərbaycanı tərk etməyə məcbur edilmişdi. Bu isə Azərbaycanın istilası üçün bolşeviklər üçün ələ keçməz bir fürsət yaratdı.

Bu əsərlərin hər biri müstəqil cümhuriyyətlərini qurmaq istəyən və bunu qoruyub saxlamağa çalışan müsəlman-türklərə güclü türk dövləti olan Osmanlının hərbi-siyasi yardımı, ermənilərin hər fürsətdə türklərə qarşı həyata keçirdikləri zorakı hərəkətlər və hərbi fəaliyyəti, 11-ci Qızıl Ordunun Azərbaycana daxil olması haqqında geniş və obyektiv məlumatlar əldə etmək üçün xüsusi dəyərlidirlər. Türkiyə tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyəti tarixinin daha dərindən öyrənilməsi hər zaman aktual olan məsələlərdəndir.

**Ədəbiyyat**

Ağayev, İ. (1993). *1917–1920-ci illər Azərbaycan tarixi Türkiyə tarixşünaslığında* [tarix üzrə fəlsəfə doktoru dissertasiyası]. Ali Attestasiya Komissiyası (Azərbaycan)

Azərbaycan tarixi (2008). (C. V). Elm nəşriyyatı.

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. (2014). (C. 1).Şərq-Qərb nəşriyyat evi.

Bıyıklıoğlu, T. (1999). *Türk İstiklal Harbi: Mondros mütarekesi və tatbikatı* (C. 1). Genelkurmay Basımevi.

Selek, S. (1987). *Anadolu ihtilali*. Kastaş A.Ş. Yayınları.

Tuğaç, H. (1995). *Türk İstiklal Harbi: Doğu cephesi (1919–1921)* (C. 3). Genelkurmay Basımevi.

***Telif ve Lisans Bildirimi***

*Bu makalenin tüm yayın ve telif hakları Journal of Academic History and Ideas / Akademik Tarih ve Düşünce Dergisi'ne aittir. Makale, dergi tarafından Creative Commons Atıf-GayriTicari 4.0 Uluslararası Lisansı (CC BY-NC 4.0) kapsamında açık erişimli olarak sunulmaktadır (https://creativecommons.org/licenses/by-nc-nd/4.0/). Bu lisans kapsamında, makale uygun bilimsel atıf yapılması koşuluyla ve yalnızca ticari olmayan amaçlarla her türlü ortamda kullanılabilir, çoğaltılabilir ve paylaşılabilir; ancak orijinal içeriğin değiştirilmesi, dönüştürülmesi veya üzerinde türev eser üretilmesi kesinlikle yasaktır. Dergide yayımlanan çalışmaların bilimsel, hukuki ve etik sorumluluğu tamamen makale yazar(lar)ına aittir; dergi editörleri ve yayın kurulu bu içerik nedeniyle sorumlu tutulamaz. Makalenin ticari yeniden kullanımı, çeviri veya yeniden yayımlanmasına ilişkin tüm talepler, derginin editör kuruluna akademiktarihvedusunce@gmail.com adresi üzerinden iletilmelidir.*